Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2019-№2 | Серия общественно-политических наук

**Hüseynova Turanə Əhmədağa qızı**
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*turanhsenova@yahoo.com*

# MÜƏLLİM-ŞAGİRD-VALİDEYN ÜÇBUCAĞINDA TEMPERAMENT TİPLƏRİNİN NƏZƏRƏ ALINMASININ ZƏRURİLİYİ

***Açar sözlər***: *fəaliyyət, müəllim, şagird, temperament, davranış, tədqiqat, fərdiyyət.*
***Ключевые слова***: *деятельность, учитель, студент, темперамент, поведения, исследования, индивидуальность.*
***Key words:*** *behavior, teacher, student, temperament, activity, research, individuality.*

Temperament xassələri uşaqlarda ontogenezin ilk dövrlərindən təzahür etməyə başlayır.Temperament tipinə daha əminliklə uşağın hərəki fəallığının xüsusiyyətlərini təhlil edərək fikir yürütmək olar. Temperamentin yaş dəyişmələri V.E.Çudnovski (6), N.S.Leytes (7), E.İ.Mastvilisker və Q.E.Dikopolskaya (2) tərəfindən öyrənilmişdir. Bu tədqiqatlara görə, temperamentin yaş dəyişmələrinə müvafiq bir sıra qanunauyğunluqları ayırd etmək olar. Erkən dövrdə uşaqların inkişafı oyanma və ləngimə proseslərinin zəifliyi ilə fərqlənir. Oyanmanın zəifliyi tezliklə yorğunluq yaradaraq asanlıqla müdafiə ləngiməsinə keçir. Bunu sinifdəki şəraitin cüzi dəyişməsi ilə şagirdlərin diqqətinin təlimdən yayınmasında görmək olar. Xarici ləngimə, hər şeydən əvvəl ikinci dərəcəli qıcıqlayıcıların təsiri altında hərəkətlərin ləngiməsində ifadə olunur. Tədqiqatçılar bildirirlər ki, oyanma prosesinin gücü məktəbəqədər dövrdə hələ zəif olur. 7-8 yaşda fərd üçün əlverişli səviyyəyə çatır. Bu dövrdən etibarən yaşlılar və uşaqların əsəb sisteminin işə qabilliyi bir-birindən o qədər də fərqlənmir. Psixoloqlar sübut ediblər ki, hər şeydən əvvəl müxtəlif reaksiyaların qurulmasında və davamlılığında ifadə olunan qabiliyyətin ləngimə prosesinin gücü maksimal səviyyəyə oyanmadan sonra çatır.

Əgər əsəb sistemində ləngimənin gücünün daha uzun müddət oyandığına diqqət yetirsək, o halda ilkin mərhələdə oyanma gücünə sahibolmada tarazlığın inkişafını müşahidə edə bilərik. Kiçikyaşlı məktəbli özünün davranışı ilə xoleriki

xatırladır. Onun üçün öz davranışına zəif nəzarət etmək xarakterikdir. Sonralar bu müvazinətsizlik dəyişərək 12 yaşda yaşlılıq səviyyəsinə qədər qalxır.

Əsəb proseslərinin hərəkətliliyi fərdin inkişafı ilə bağlı olaraq artır. Bu ona görə baş verir ki, kiçikyaşlı məktəblilər dəyişən şəraitə tez və asan uyğunlaşır, onları öyrətmək, yaxud müxtəlif vərdişləri yenidən mənimsətmək məktəbəqədər yaşdan daha asan olur. Bununla belə, yaşlılıq dövründə bu hərəkətlilik zəifləyir. Belə enmə şəraitin dəyişməsinə çətin adaptasiyada, davranışın əhəmiyyətli dərəcədə ləngiməsində ifadə olunur.Uşaq nə qədər kiçikdirsə, onun dözümlülüyü də o qədər aşağı, həssaslığı, təəssüratlılığı, impulsivliyi, emosional təəssüratların intensivliyi isə o qədər yüksək olacaqdır. K.D.Uşinski yazırdı: ”Uşağı oturmağa məcbur edin, o, tezliklə yorulacaq. Yatdırın, yenə eyni şey baş verəcək. Uzun müddət gəzə bilmir. Çox danışa bilmir. Oxumur, yazmır, düşünə bilmir. Ancaq bütün günü durmadan hərəkət edir. Fəaliyyətini tez-tez dəyişir. Bir dəqiqə yerində durmur. Möhkəm yuxu bu sərf olunanların yenidən bərpası üçün kifayət edir” (6, s. 4). Y.Strelyau bununla bağlı olaraq qeyd edir ki, “hər bir yaş dövründə fəallığın, emosionallığın və motorikanın öz xüsusiyyəti vardır. Kiçik məktəbli yaşında bu, əsəb sisteminin zəifliyindən asılı olaraq maraqların asanlıqla baş qaldırması, mərkəzləşmə vəziyyətinin qısalığı ilə səciyyələnir. Emosionallıq da, motorika da bu dövrdə, əlbəttə ki, sonrakı dövrlərdəki kimi deyildir. Bu dövrdə o hələ özünün uşaqlıq xassələrini qoruyub saxlayır”(3, s. 72). L.S.Vıqotski temperament tipi adı altında insan orqanizminə, insan konstitusiyasına, bütün anadangəlmə irsi reaksiyalara aid olanları daxil edir. “Beləliklə, temperament daha çox fizioloji və bioloji anlayışlar olub şəxsiyyətin instinktiv, emosional, reflektor reaksiyalarında qeydə alınan sahələri əhatə edir. Bizim davranışımızın bütün sahələrində qeyri-ixtiyari olan anlayış – temperament adlanır” (4, s. 325).

Bu sahədə məktəbdə aparılan psixoloji xidmət işinin istiqamətləri sırasında konsultasiyaların təşkili öndə durur. Bunu nəzərə alaraq tədqiqatımızın eksperimental hissəsində valideynlər və müəllimlərin şagirdlərlə münasibətlərində temperament tipləri baxımından dəyişmələr yaratmaq üçün psixoloji konsultasiyaların təşkilinə üstünlük verdik. Çünki, keyfiyyətli və səmərəli, məqsədəyönəlmiş metodologiyası, eləcə də proseduru düzgün qurulmuş psixoloji konsultasiya müəllim və valideynlərin kiçikyaşlı məktəblilərin fərdi psixoloji xüsusiyyətləri haqqındakı təsəvvürlərinə təsir göstərərək onlarda konstruktiv dəyişmələr yaratmağa qadirdir. Ona görə də psixoloji konsultasiyada əsas diqqət məlumatlandırmaya və problemin izahına istiqamətləndirilmişdir. Temperament xassələrinin təlimdə nəzərə alınması üçün konsultasiyalardan aşağıdakı məqsədlərlə istifadə etdik: - kiçikyaşlı məktəblilərin fərdiyyətinin quruluşunda temperamentin yerini ayırd etmək;- kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində temperament xassələrinin rolunu müəyyənləşdirmək; təlim fəaliyyətində və qarşılıqlı münasibətlərdə bunları nəzərə alarkən valideyn və müəllimlərin üzləşdikləri psixoloji çətinliklərin həlli yollarını göstərmək.

M.S.Yeqorovanın fikrincə, pis və ya yaxşı temperament tipi yoxdur. Onlardan hər birinin üstün və mənfi tərəfləri vardır. Peşə fəaliyyəti, peşəseçimi zamanı peşənin xüsusiyyətlərinin dinamiklik və emosionallıq baxımından temperament tiplərinə görə nəzərə alınması vacibdir (5, s. 264). Apardığımız tədqiqatda psixoloji konsultasiyaları müxtəlif üsullarla söhbət**,** məsləhət və tövsiyələrlə həyata keçirdik. Bu işlər fərdi və qrup halında təşkil edildi. Konsultasiya zamanı valideyn və müəllimlərlə kiçikyaşlı məktəblilərin fərdiliyi, onun quruluşunda temperament tiplərinin rolu, fəaliyyətə, öyrənmə və mənimsəməyə təsiri haqqında fikir mübadiləsi apararaq psixoloji məsləhətlər verdik.

Temperament tipləri ilə bağlı məktəb psixoloqunun yaxından iştirakı təmin olundu. Onun keçirdiyi konsultasiyalarda əvvəlcə əsaslandığı başlıca konsepsiyalar ayırd edilmişdir. Bunlara temparement tipləri haqqında (humoral, konstitusional, genetik, psixofizioloji və psixoloji) nəzəriyyələr, o cümlədən davranış (biheviorist: Uotson, Skinner), fərdi-psixoloji (A.Adler), geştalterapevtik (F.Perlz və b.), sosial-koqnitiv (A.Bandura, C.Rotter, A.Beka), dioloji (Q.Hermans) istiqamətlər, o cümlədən, kliyentəyönəlik konsultasiyanın (K.Rocers) metodologiyası, konsultasiya texnikaları daxil idi.

Məktəblərdə təşkil edilən konsultasiyalarda fərdilik və temperament tipləri mövzusunda xüsusi qurulmuş ünsiyyət prosesində müəllim və valideynlərə məlumat verildi. Uşaqlarla temperament xassələrinə görə davranmanın, ünsiyyət və münasibətləri tənzimləməyin yolları göstərildi. Belə konsultasiyalar zamanı ən təsiredici vasitələr  söhbət, məsləhət, nümunələr gətirmək, sitatlar söyləmək, faktlar göstərmək, xatırlatmaq, inandırmaq, təlqin etmək, oxşar situasiyalarla müqayisə aparmaq olmuşdur. Valideynlərə şagirdlərin dərsdəki, qrup fəaliyyətindəki davranışları, ünsiyyət və fəaliyyəti, hərəki fəallığına görə başqalarında fərqləri barədə çəkilmiş kiçik həcmli roliklərin, videolentlərin nümayişi də əlverişli üsul kimi dəyərləndirildi.

Məsələn, bihevioral istiqamətli konsultasiyada əsas məqsəd valideyn və müəllimlərin təsirindən istifadə edərək kiçikyaşlı məktəblilərin davranışının dəyişdirilməsidir. Bunun üçün təlim prosesində, məsələn xolerik və ya melanxolik tipli, eyni zamanda qarışıq (melanxolik/xolerik) tipli şagirdlərin yaşadığı çətinliklər izah olunmuş, təlim uğursuzluqlarına, həmyaşıdlarla ünsiyyətinə təsiri aydınlaşdırılmışdır. Məktəb həyatındakı bir sıra situasiyalarda baş verən proseslər təhlil edilərək müvafiq davranış normaları seçilmiş, onun rol-davranış qaydaları müəyyənləşdirilərək tövsiyələr verlmişdir.

Koqnitiv istiqamətdə verilən konsultasiyalarda temperament tipinə görə kiçikyaşlı məktəblilərin özünüdərketməsi, özünüqiymətləndirməsi, ev tapşırıqlarnın həlli zamanı daha uğurlu iş üslubu, koqnitiv üslubun formalaşması üçün əlverişli yollar izah edilmişdir. Bütövlükdə psixoloji konsultasiyada əsas diqqət kiçikyaşlı məktəblilərin psixoloji sağlamlığının qorunmasına xidmət edir. Belə konsultasiyalar xüsusi prosedurda həyata keçirilir.

İlk növbədə, nəzərə alınmışdır ki, psixoloji konsultasiya rasional qaydada qurulan, psixoloqdan dərin təhlil və istifadəçinin şəxsiyyətinə fərdi yanaşma tələb edən prosedurdur. Bu prosedurda istər müəllim, istərsə də valideyn sağlam düşüncəli, problemləri həll etməyə qadir olan, qarşısına məqsəd qoyaraq onu həll etməyi bacaran şəxs olmalıdır. Psixoloq isə temperament tipinə görə uşaqla münasib qaydada davranması, münasibətini tənzimləməsi prosesində üzləşdiyi problemləri səmərəli həll etməsi üçün sistemli qaydada müşayiət edir: bilik və bacarığından, təcrübəsindən çıxış edərək onun həyatındakı fikirlərini bölüşür, daha münasib, əlverişli variantlar, nümunələr, yollar təklif edir. Konsultasiya prosedurunun gedişi boyu hər iki tərəfin fəallığı təmin olunmuş, qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Psixoloji konsultasiya məktəbdə, əlverişli şəraitdə keçirilmişdir. Konsultasiyaların prosedurunda bir sıra mühüm tələblər gözlənilmişdir:

- psixoloqun temperament xassələri və onun kiçikyaşlı məktəblilərdə təzahür xüsusiyyətləri haqqında zəruri biliklərə malik olması;
- psixoloqun cəlbedici, intonasiyalı, sakit və təmkinli nitqə sahib olması;
- onun nitqinin qarşı tərəfdə rahatlıq yaratması, korreksiyaedici təsir göstərməsi;
- anlayışlardan düzgün istifadə etməsi, psixoloji dildə, aydın, anlaşıqlı danışması;
- istinad edilən psixoloji problem üzrə məsələni fərdiləşdirməsi;
- valideyn və müəllimə fikir mübadiləsi üçün imkanın yaradılması.

Görüşlərin sayına görə sınanılanlarla aparılacaq söhbətin, verəcəyi məsləhətlərin strategiyası əvvəlcədən, probleminin həllinə müvafiq işlənilmişdir. Səmərəli nəticələr əldə etmək üçün psixoloji konsultasiyalar sistemli aparılmışdır. Biz konsultasiyalar zamanı həm fərdi görüşlərə, həm də qrup konsultasiyalarına istinad etdik. Ümumilikdə temperament problemi ilə bağlı aparılan konsultasiyaların forması fərdi, ailə və qrup şəkilində daha da əlverişlidir.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı: ADPU-nun mətbəəsi, 2008, 479 s.
2. Маствилискер Э.И., Дикопольская Г.Е. Некоторые условия формирования индивидуального стиля в решении учебных задач у дошкольниов // Темперамент (системное исследование). Пермь: 1975, с. 120-137
3. Стреляу Э. Роль темперамента в психическом развитии. М.: Прогресс, 1982, 230 с.
4. Выготский Л.С. Педагогическая психология. М., Педагогика, 1991, 480 с.
5. Егорова М.С. Психология индивидуальных различий. М.: Планета детей, 1997, 325 с.
6. http://biblio fond.ru
7. Лейтес Н.С. Возрастные предпосылки умственных способностей // Хрестоматия по психологии. М.: Просвещение, 1977, с. 386-395

**Гусейнова Турана Ахмедага гызы**

**Учитывание типы темперамента в треугольнике учитель-ученик-родитель**

**РЕЗЮМЕ**

В статье рассматривается особенностях младшего школьного возраста, о трудностях в установлении взаимоотношений в группе.Опыт межличностных отношений с другими людьми, взрослыми или сверстниками, является фундаментом для развития личности ребёнка, становления его самосознания. Основополагающая значимость проблемы взаимоотношений детей в последнее время особенно привлекает внимание психологов и педагогов. В статье нашла свое отражение роль сверстников в адаптации. Указывается, что правильная адаптация к школе зависит как от взаимоотношений, так и правильного построения учебной деятельности. Наряду с этим преподаватели оказывают основное влияние на позицию ученика в коллективе, установление взаимоотношений со сверстниками.

**HuseynovaTurana Ehmedaqa**

**Taking into account the types of temperament in the teacher-student-parent triangle**

**SUMMARY**

Characteristics of junior school aged period, difficulties in the field of making mutual relations in the group are discussed in the article. It is shown that, even though mutual relations start from preschool period, they reliably, systematically establish in the training–educational and mutual intercourse processes with his peers and adults only when the child goes to school. The school life means both new collective and change of activity form. It can lead to psychical and physical tension. Ways of solving problem are shown in the article. Firstly, it is connected with child’s a little bit adaptation to the school life beginning from preschool period, secondly, game characteristic of training activity in certain time.

*Rəyçi: dos. N.T.Rzayeva*